

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 aprel 2022-ci il №29 (2640) https://mod.gov.az Qiymәti 30 qəpik


*Reportaj*

## "Vətən torpağını qorumaq müqəddəs borcumuzdur"



***Hər dövlətin ərazi bütövlüyünün, təhlükəsizliyinin qarantı güclü ordusudur. Xalq ordunun ordu xalqın dayağıdırsa, onda dövlətin qüdrəti, özünümüdafiə bacarığı daha da yüksəkdir. Bu gün Azərbaycan əsgəri Vətənə və xalqa sədaqətli xidməti ilə öz övladlıq missiyasını layiqincə yerinə yetirir. Əbəs yerə deyilməyir: "Vətəni qorumaq - onun varlığı üçün hər şeyini qurban verməkdir".***

Xalq öz qəhrəmanları ilə tanınar. Azərbaycan xalqının belə qəhrəmanları minlərlədir. İgid oğullarımız var olduğu müddətcə Azərbaycanımız var olacaq, Vətənimiz yaşayacaq. Birinci Qarabağ müharibəsi, Aprel döyüşləri, Tovuz (İyul) döyüşləri və nəhayət, 44 günlük Vətən müharibəsində öz qanı ilə tarix yazan oğullarımız var. Onların hər biri gənclərimiz üçün əsl vətənpərvərlik nümunəsidir. Şəhidlərimiz, qazilərimiz Zəfər tarixinin qəhrəmanları olaraq daim diqqət mərkəzindədirlər. Onları ehtiramla yad etmək, hörmətlə anmaq və gənc nəslə tanıtmaq bu gün qədirbilən Azərbaycan xalqının qarşısında duran əsas vətəndaşlıq borcudur.

Bugünkü Vətən müdafiəçisi olan cəsur əsgərlərimizlə görüşə tələsirik. Getdiyimiz mövqe dağlıq ərazidədir. Mayor Sərxan Bayramovun Vətən müharibəsi ilə bağlı söhbətləri və dağların gözoxşayan gözəlliyi yolun uzunluğunu qətiyyən hiss etdirmir. Üfüqdə görünən zirvələr artıq əl uzatsan, çata biləcək məsafədədir. Yaz fəslinin olmasına baxmayaraq, 2000 metrdən çox yüksəklikdə xidmət edən oğullarımızın yanına qalxdıqca havada qışın soyuğunu hiss edirik. Zabit deyir ki, buranın iqlimi sərtdir. "Soyuğuna dözmək çətindir. Lakin bizim əsgəri belə çətinliklər əsla qorxutmur. Azərbaycan əsgərinin qəlbini isidən əsas amil Vətən sevgisidir. Məhz bu sevginin nəticəsi idi ki, Azərbaycan əsgəri 44 günə tarix yazdı, ruhumuzun ocağına çevrilən Qarabağı azad etdi. Bu böyük tarixdir və hər birimiz bu tarixi layiqincə yaşatmağa borcluyuq".

Bir azdan görüşəcəyimiz əsgərlər də qalib Azərbaycan Ordusunun əsgəri adını daşımaqdan qürur hissi keçirirlər. Onların bir amalı var - Vətəni müdafiə etmək. Çünki Vətəni qorumaq xalqın firavanlığını təmin etmək deməkdir.

Mənzil başına çatırıq. Zabit Elvin Ağakişiyev deyir ki, Vətən səngərdən başlayır. "Vətən torpağını qorumaq müqəddəs borcumuzdur. Bu gün bölməmizdə olan yüksək əhval-ruhiyyənin başlıca səbəbi Vətən hüdudlarında xidmətdə olmağımızdır.

Şəxsi heyəti bacarıqlı döyüşçü kimi yetişdirmək üçün komandir heyəti olaraq, əlimizdən gələni əsirgəmirik. Həmçinin hərbi qulluqçularımız üçün bölməmizdə yaradılan sosial-məişət şəraitinin yüksək səviyyədə olması əsgərlərimizin xidmətinin lazımi səviyyədə təşkil edilməsində başlıca rol oynayır. Bundan başqa şəxsi heyətin qayğıları ilə daim maraqlanmaq və həlli yolunda müvafiq addımlar atmaq da əsas prioritet istiqamətlərdəndir ki, bunlar da hərbi qulluqçulara əlavə stimul verməklə onların mənəvi-psixoloji hazırlıqlarına müsbət təsir edir.

**(Ardı 3-cü səhifədə)**



"Qələbəmi Azərbaycan idmanının qələbəsi sandım"

**4-cü səhifədə**



"Aprel döyüşləri - Qələbəmizin əsas müjdəçisi" adlı tədbir keçirilib

**5-ci səhifədə**



"Ən yaxşı radiasiya, kimyəvi və bioloji mühafizə heyəti" adı uğrunda yarış keçirilir

**7-ci səhifədə**



Azərbaycan Ordusunda hərbiləşdirilmiş kros birinciliyi keçirildi

**8-ci səhifədə**

# Hərbi hospitalın 30-cu ildönümü qeyd olundu



*Aprelin 14-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının yaradılmasının 30-cu ildönümünə həsr olunmuş tədbirdə iştirak etdilər.*

Əvvəlcə hospitalın həyətində ucaldılmış ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyuldu, Ulu Öndərin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tibb personalı ilə görüşən müdafiə naziri onları əlamətdar gün münasibətilə təbrik etdi, şərəfli və məsuliyyətli xidmətlərində uğurlar arzuladı.

General-polkovnik Zakir Həsənov ulu öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində başladığı işlərin ölkə başçısı tərəfindən bu gün də uğurla davam etdirildiyini



bildirdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində aparılan islahatlar nəticəsində bütün istiqamətlərdə olduğu kimi, hərbi tibb sahəsində də əldə olunan uğurlardan danışdı.

Müdafiə naziri hospitalın bugünkü elmi-texniki bazasının nəzdində elmi işlərin və araşdırmaların geniş aparılması, tibb heyətinin peşəkarlığının daha da artırılması üçün bütün imkanların mövcudluğunu qeyd etdi.

Nazir Vətən müharibəsində hərbi həkimlərimizin və tibb personalının göstərdiyi fədakarlıqların Ali Baş Komandan tərəfindən yüksək qiymətləndirildiyini xüsusi vurğuladı. Dövlətimizin diqqət və qayğısı nəticəsində Vətən müharibəsi dövründə sağlamlığını itirmiş 259 nəfərin xarici ölkələrə müayinə və müalicəyə göndərildiyini, onların böyük əksəriyyətinin müalicəsini başa vuraraq Vətənə qayıtdıqlarını



diqqətə çatdırdı. Qeyd olundu ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanının tələblərinə əsasən, 1997-ci ilin 2 avqust tarixinə kimi Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Həkim Komissiyası tərəfindən verilmiş 17995 şəhadətnamə elektron informasiya alt sisteminə yerləşdirilib. General-polkovnik Zakir Həsənov Vətən müharibəsi zamanı yaralıların döyüş meydanından təxliyə olunması, 11110 nəfərə tibbi yardımın göstərilməsi və tezliklə sağalması üçün əllərindən gələni edən tibb işçilərinə təşəkkürünü bildirdi.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları aidiyyəti üzrə çatdırdı, tibb xidmətinin daha da təkmilləşdirilməsi ilə bağlı göstərişlər verdi.

Digər çıxış edənlər bölmələrdə yaradılan müasir şəraitə görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər. Vurğulandı ki, müasir tibbi cihaz və avadanlıqlarla təchiz olunmuş müalicə korpusları hərbi qulluqçularımıza və onların ailə üzvlərinə yüksək səviyyədə xidmət göstərməyə imkan verir. Tibb personalı bundan sonra da hospitalın bütün imkanları ilə hərbçilərimizin sağlamlığının qorunub saxlanılmasına çalışacaqlarına, ölkə başçısının və Müdafiə Nazirliyi rəhbərliyinin tapşırıqlarını layiqincə və yüksək peşəkarlıqla icra edəcəklərinə söz verdilər.

Sonda hərbi hospitalın xidmətdə fərqlənən, yüksək nizam-intizamı ilə seçilən bir qrup əməkdaşı mükafatlandırıldı.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin kollektivinin təqdim etdiyi konsert proqramı ilə başa çatdı.

**Leytenant**
**Elçin İMANOV**
**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında elmi-praktik konfrans keçirilib



Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının yaranmasının 30 illik yubileyinə həsr olunmuş "Şəkərli diabet xəstəliyi, müasir yanaşma" mövzusunda elmi-praktik konfrans keçirilib.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, eləcə də Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, elmi-praktik konfransın proqramına əsasən "Şəkərli diabet xəstəliyinin epidemiologiyası, etiologiyası, klinika və diaqnostikası" mövzusunda məruzələr dinlənilib.



Sonra Heydər Əliyev Fondu tərəfindən şəkərli diabetə qarşı mübarizədən, bu istiqamətdə görülən işlərdən, habelə xəstəlikdən əziyyət çəkən aztəminatlı ailələrə fondun dəstəyindən bəhs edən videoçarx təqdim olunub.

Sonda məruzələrə dair ətraflı fikir mübadiləsi aparılıb, konfrans iştirakçılarının sualları cavablandırılıb.

## “Ordudakı islahatlar dövlətimizin müdafiə qüdrətini daha da artıracaq”

Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə keçirilib. Dövlət başçısı müşavirədə bir çox məsələlərlə yanaşı, ordudakı islahatlara da toxunub. Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyətinin sayının artırıldığını, bu prosesin davam etdiriləcəyini bildirib.

Bununla bağlı AZƏRTAC-a açıqlama verən Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, hərbi-siyasi ekspert, ehtiyatda olan polkovnik Cəlil Xəlilov aparılan islahatların Azərbaycanın müdafiə qabiliyyətini daha da artıracağını vurğulayıb: "Dövlət başçısı müşavirədəki çıxışında bildirdi ki, 44 günlük Vətən müharibəsindən sonra Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyətinin sayı artırılıb və bu proses gələcəkdə də davam edəcək. Ordudakı son islahatlarla bağlı diqqət çəkən məqamlardan biri də yeni qoşun növünün - Komando növünün yaradılması ilə bağlıdır. Ali Baş Komandan müşavirədə komandoların sayını ildən-ilə artıracağını bildirdi.

Hesab edirəm ki, bu islahatlar əsasən 44 günlük Vətən müharibəsinin nəticə və gedişatından qaynaqlanır. 44 günlük Vətən müharibəsində Xüsusi Təyinatlı Qüvvələr işğalçılar üçün əsl kabusa çevrildi, erməni faşizminin məğlub edilməsində mühüm rol oynadı. Məhz bu baxımdan Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyətinin artırılması, onların təchizatının, döyüş hazırlığının daha da yüksəldilməsinə xüsusi diqqət yetirilir. Komando qoşun növünün yaradılması gerçəyi də məhz bu amillə əlaqədardır".

C.Xəlilov qeyd edib ki, Azərbaycanın maliyyə imkanları, iqtisadi gücü istər Xüsusi Təyinatlı Qüvvələrdə, istərsə də Komando qoşun növündə xidmət edən əsgərlərin sayının artırılmasına, onların təchizatının daha da gücləndirilməsinə imkan verir: "Ali Baş Komandan açıq şəkildə qeyd etdi ki, Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyətinin artırılması bundan sonra da həyata keçiriləcək və hərbi məsələlərin həlli üçün nə qədər maliyyə vəsaiti lazımdırsa, o qədər də vəsait ayrılacaq. Yəni, hərbi məsələlərin həlli, ordudakı islahatların davam və inkişaf etdirilməsi üçün heç bir maliyyə problemi yoxdur. Dövlətimizin maliyyə imkanları, iqtisadi gücü bu islahatların dərinləşməsinə imkan verir. Bu isə o deməkdir ki, yaxın gələcəkdə biz daha güclü, daha qüdrətli orduya sahib olacağıq".

# Naxçıvanda tabor, divizion komandirləri və müavinləri ilə komandir hazırlığı məşğələləri keçirilib







Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, "Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planı"na əsasən tabor, divizion komandirləri və müavinləri ilə komandir hazırlığı məşğələləri keçirilib.

Zabitlərin mənəvi-psixoloji dayanıqlılığının qorunması və bölmələri idarəetmə bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən məşğələlərdə komandir heyəti müxtəlif mövzularda nəzəri dərslərdə iştirak edib.

Komandir hazırlığında "Günün nizam qaydaları"na uyğun bölmələrdə "Qalx!" komandasından "Yat!" komandasınadək şəxsi heyətin yerinə yetirdiyi tapşırıqlar və icra etdiyi fəaliyyətlər nümayiş etdirilib.

Məşğələlərdə səhra rabitə qovşağı və elementlərinin ərazidə yerləşdirilməsi, açılması, yaranmış mürəkkəb şəraitdə rabitənin təmini ilə bağlı tapşırıqların yerinə yetirilməsi praktiki olaraq göstərilib.

Məşğələlər zamanı "Artilleriya bölmələrinin fəaliyyəti" mövzusunda dərslər keçirilib və praktiki atış tapşırıqları icra edilib.

Komandir hazırlığının sonunda zabitlərin ümumqoşun, ixtisas, topoqrafiya və fiziki hazırlıq səviyyələri yoxlanılıb.

Məşğələlərin yekununda bölmələrin döyüş hazırlığının yüksəldilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

# “Vətən torpağını qorumaq müqəddəs borcumuzdur”



(Əvvəli 1-ci səhifədə)

Bölməmizin əsgərləri səngərdə xidmət etməyin ümdəliyini, Vətən torpağını qorumaq missiyasının aliliyini dərindən dərk edərək gecə-gündüz xidmətdədirlər. Qarşımızda duran mənfur düşmən ara-sıra təxribatlara əl atsa da, cavab atəşi ilə susdurulur. Onları susduran, qorxuya salan hər bir əsgər mənim üçün ayrı-ayrılıqda qəhrəmandır. Çünki Vətən müdafiəsinin ən ön sıralarında dayanıblar. Qarşımızdakı öz məkrli niyyəti ilə bizlərə yaxşı tanış olan erməni əsgəridir. Əsgərlərimiz dərk edirlər ki, düşmən tərəfi nəzarətsiz buraxmaq olmaz".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Həsən Həsənov Vətəni qorumaq vətənpərvərlikdən irəli gələn bir duyğudur deyərək Azərbaycan əsgərinin 44 günlük Vətən müharibəsində yazdığı zəfər salnaməsindən söz açır. "Vətən sevgisi hər bir vətəndaş üçün ən ülvi hissdir. Bu hissi sözlərlə ifadə etmək çətin, misralara, cümlələrə sığdırmaq mümkünsüzdür. Onu gərək qəlbən hiss edəsən. Doğulub boya-başa çatdığımız torpaq ata-babalarımızın bizlərə əmanətidi. Ona görə də Vətənimizi "ana torpaq" adlandırır, ona canımız və qanımızla bağlı oluruq. Dağda Vətən keşiyi çəkən komandirlərlə və vətənpərvər oğullarla bir sırada dayanmaq qürurvericidir. Özüm bu torpaqlarda böyüyüb boy atmışam, buranın suyunu içmişəm, havasını udmuşam. Unutmamalıyıq ki, üzərində gəzdiyimiz bu torpaqların hər qarışı uğrunda əcdadlarımız canını və qanını əsirgəməyiblər. 2020-ci ilin sentyabrında başlayan və 44 gün davam edən haqq savaşı ilə bir zamanlar işğalda olan tarixi torpaqlarımızda üçrəngli bayrağımız dalğalanır, quruculuq və bərpa işləri görülür. Qazanılan şanlı qələbə Azərbaycan Ordusunun gücünü, xalqın birliyini bir daha dünyaya nümayiş etdirdi. Böyük Qələbə göstərdi ki, Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan heç zaman öz tarixi yurdunun işğalda qalması faktı ilə barışa bilməz, barışmadı da. Azərbaycan əsgərinin mətin addımlarla irəliləyərək yazdığı tarixi salnamə illər boyu unudulmayacaq. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dediyi kimi: "Eşq olsun, Azərbaycan Ordusuna, yaşasın Azərbaycan!" Qoy hər kəs bilsin ki, Müzəffər Ali Baş Komandanımızın və xalqımızın bizlərə olan etimadını layiqincə doğrultmaq üçün gecə-gündüz torpaqlarımızı göz bəbəyimiz kimi müdafiə edirik".

Əsgər Mahmud Əhmədov döyüş növbətçiliyindən yenicə qayıtmışdı. Ondan dağlıq ərazidə, zirvələrdə xidmət etmənin necə bir hiss olduğunu soruşuram. "Vətən torpağının başladığı zirvədəyəm. Zirvələr hər zaman əsl döyüşçülərin məkanı olub. Burada komandirlərimiz "Murov qartalı" Raquf Orucovdan tez-tez bəhs edirlər. Onun göstərdiyi şücaətdən, komandirlik keyfiyyətlərindən, Vətən sevgisindən ağızdolusu danışırlar. Mən də unudulmaz komandir Raquf Orucovun bugünkü davamçısı olaraq torpağımı sevirəm, Vətənimə bağlıyam və onun üçün can almağa və can verməyə də hər an hazıram. Məmləkətimiz hər zaman qəhrəmanlar yetişdirib. Vətənimizin bütövlüyü, ölkəmizin müstəqilliyi uğrunda neçə canlar qurban gedib. Vətən uğrunda can fəda etmək - şəhid olmaqdır, şəhidlik isə zirvələrin ən alisidir".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Həsən Həsənov ilə birlikdə müşahidədən qayıdan əsgərə yaxınlaşırıq. "Mən əsgər Elnur Abısov əslən Yevlax rayonundanam. Bu gün Vətənin müdafiəsində dayanan polad əsgərlərdən biri olaraq, əynimdə qalib ordunun mundirini daşımaqdan fəxarət hissi keçirirəm. Vətəni qorumaq həm vətəndaşlıq, həm də övladlıq borcumuzdur. Düşmən bəzən təxribatlara əl atsa da, hər birimiz ayıq-sayıqlıq nümayiş etdirir, onların cavabını gecikmədən veririk. Hər birimiz yüksək əhval-ruhiyyə ilə Vətənə xidmət edirik".

Digər əsgərlər İbrahim Ağabəyli, Rəvan Allahverdiyev də qayğıkeş komandirlərinin göstərdiyi isti münasibətdən, Vətən sevgisinin vacibliyindən danışırlar. Onların hər birinin fikrini öyrəndikcə anlayıram ki, bu gün zirvələrimizin fatehləri sayəsində yüksəkliklərimiz göz bəbəyi kimi qorunur. Belə vətənpərvər və cəsur oğullarımız var olduğu müddətcə torpaqlarımızın bütövlüyü daim qorunacaq.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Azad edilmiş ərazilərdə dislokasiya olan bölmələrin təminatı yüksək səviyyədədir



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, azad edilmiş ərazilərdə dislokasiya olunan bölmələrin xidməti-döyüş fəaliyyətinin təşkili, hərtərəfli təminatı və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlar planlı şəkildə icra olunur.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, çətin relyefli və sərt iqlim şəraitli ərazilərdə gecə və gündüz fasiləsiz xidmət aparan şəxsi heyətin döyüş qabiliyyətinin daha da artırılması, döyüşə hazırolma vəziyyətinin yüksək səviyyədə saxlanılması üçün müasir tipli hərbi infrastruktur obyektləri inşa edilir, eləcə də digər zəruri tədbirlər həyata keçirilir.

Bu tədbirlər çərçivəsində azad olunmuş ərazilərdə hərbi avtomobillərin daima işlək və saz vəziyyətdə saxlanılması məqsədilə texniki xidmət və təmir məntəqələri, eləcə də akkumulyator sexləri yaradılır. Müasir avadanlıqlarla təchiz olunan məntəqələrdə avtomobillərə texniki xidmətin və plana uyğun mövsümi qulluğun göstərilməsi üçün hər cür şərait mövcuddur.

Texniki xidmət və təmir məntəqələrinə daxil olan avtomobil texnikalarında aşkar edilən nasazlıqlar təmir sexlərində qısa zaman ərzində aradan qaldırılaraq yenidən bölmələrin sərəncamına verilir.

Avtomobil texnikalarının fasiləsiz və dayanıqlı istismarını təmin etmək məqsədilə bu məntəqələr yüksək keyfiyyətli yanacaq-sürtgü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilir. Döyüş texnikalarının və hərbi nəqliyyat vasitələrinin texniki göstəricilərinin yüksək səviyyədə saxlanılması, həmçinin mövsümi tələblərə uyğun daim istismara hazır vəziyyətdə olması təmin edilir. Bundan əlavə, bu məntəqələrdə sex rəisi, çilingər, qaynaq və yuyunma otaqları, həmçinin AKB sexi və ZT anbarı da vardır. AKB sexi akkumulyator batareyalarına texniki xidmətin göstərilməsi üçün suyun distillə olunması, AKB doldurulması və saxlanılması otaqlarından ibarətdir.

Azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin diqqət və qayğısı sayəsində şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, maddi-texniki təminatının gücləndirilməsi, sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlər davam etdirilir.

# Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri və onların müəllimlərinin mükafatlandırılması mərasimi keçirilib





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Naxçıvan Muxtar Respublikasının yaradılmasının 98-ci ildönümü ilə əlaqədar ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri arasında keçirilən inşa-yazı müsabiqəsində və Amerika Birləşmiş Ştatlarının Riyaziyyat Fənn Assosiasiyasının xətti ilə VII-IX sinif şagirdləri arasında keçirilən Beynəlxalq riyaziyyat olimpiadasında qalib olan Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri və onların müəllimlərinin mükafatlandırılması mərasimi keçirilib.

Mükafatlandırma mərasimində Əlahiddə Ümumqoşun Ordu komandanının müavini general-mayor Rəhim Cəfərov və Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Natiq Əhmədov müsabiqə və olimpiadada uğur qazanmış şagirdləri təbrik ediblər.

Bildirilib ki, istedadlı və yaradıcı təfəkkürü ilə seçilən şagirdləri aşkar etmək istiqamətində 2019-cu ildən ölkəmizdə keçirilən Amerika Riyaziyyat Fənn Olimpiadasında ilk dəfə məktəbin 6 şagirdi iştirak edib və onlardan 4-ü müvəffəqiyyət qazanıb. Uğurlarını 2022-ci ildə də davam etdirən Naxçıvan Qarnizonu tam orta məktəbi 10 şagirdlə olimpiadada iştirak edib və 7 şagird yüksək nəticə göstərib.



Məktəbin müəllimi Gülnarə Mahmudova və olimpiadanın qalibi, 8-ci sinif şagirdi Fidan Ağazadə təhsilə göstərilən qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

Çıxışların ardından qalib olan Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri və onların müəllimlərinin mükafatlandırılması ilə bağlı Əlahiddə Ümumqoşun Ordu komandanının əmri tədbir iştirakçılarına çatdırılıb. Sonra qaliblərə sertifikatlar, tərifnamə təqdim edilib. Qaliblər və onların müəllimləri mükafatlandırılıblar.

# "Qələbəmi Azərbaycan idmanının qələbəsi sandım"



***Mərkəzi Ordu İdman Klubunun zabiti, yunan-Roma güləşçisi Rafiq Hüseynov Macarıstanda keçirilən Avropa çempionatında qızıl medal qazanıb. Üçqat Avropa çempionu olub. Azərbaycan idmanının şərəfini ləyaqətlə qoruyub. Üçrəngli bayrağımızı ucaldıb. Bu günlərdə zabit Rafiq Hüseynovla görüşüb çempionatla bağlı təəssüratlarını öyrəndik.***

**- Siz dünya və üçqat Avropa çempionusunuz. Ölkəmizi beynəlxalq yarışlarda layiqincə təmsil edirsiniz. Budapeştdə keçirilən Avropa çempionatında rəqiblərinizi üstələyərək qızıl medal qazandınız. Qələbənizlə xalqımızı sevindirdiniz. Yəqin ki, Avropa çempionatına qələbə əzmi ilə, çempion olmaq arzusu ilə getmişdiniz.**

- İştirakçısı olduğum bütün yarışlarda ölkəmizin idman şərəfini layiqincə qorumağa çalışıram. Çalışıram ki, çempionatlarda uğur qazanım, medallara sahib olum. Uğurlarımla, qələbələrimlə xalqımızı sevindirim. İdmançı həmişə tatami üzərinə qələbə qazanmaq arzusu ilə çıxır. Budapeştə gedəndə hədəfim Avropa çempionu olmaq idi. Dünya çempionu titulumdan sonra qitə yarışlarında da bu uğurumu təkrarlamaq istəyirdim. Məqsədimə çatmaq üçün bütün güc və bacarığımı ortaya qoyub mübarizə aparırdım. Onu da nəzərinizə çatdırım ki, çempionata iki ay qalmış həm xarici ölkələrdə, həm də doğma Azərbaycanımızda təlim-məşq toplantıları keçmişdik. Bu da yarışların gedişinə müsbət təsir göstərməliydi. İlk qarşılaşmam çexiyalı idmançı Petr Novaki ilə oldu. Onu 5:1 hesabı ilə üstələdim. Daha sonra moldavalı və macar güləşçilərlə üz-üzə gəldim. Hər iki görüşdən qələbə ilə ayrıldım. Final mərhələsində gürcü idmançı Sela Bolkvadze ilə qarşılaşdım. Artıq çempionluğun bir addımlığında idim. Mütləq qələbə qazanmalı idim. Gərgin mübarizə şəraitində keçən finalda rəqibimə 2:1 hesabı ilə qalib gələrək Avropa çempionu oldum. Arzuma çatdım, istəyimə qovuşdum. Qələbələrimlə xalqımızı sevindirdiyim üçün çox məmnunam.

Bu yarış mənim üçün ona görə yaddaqalan və fərqli oldu ki, bu titul həyatımda üçüncü Avropa çempionluğum idi. Bildiyiniz kimi, idman tariximizdə yunan-Roma güləşi üzrə üçqat Avropa çempionu yoxdu. Bu çempionatda mən ilk rekorda imza atdım. Təkcə mən yox, bütövlükdə komandamız bu çempionatda böyük uğurlar qazandı. İdman tariximizdə ilk dəfə olaraq ölkəmizin yunan-Roma güləşi üzrə komandamız Avropa çempionu oldu. Əlbəttə, bu ölkəmiz üçün böyük uğur idi.

**- Macarıstanda keçirilən Avropa çempionatı sizin üçün necə yadda qaldı?**

- İnsan həyatında əlamətdar hadisələr çox olur. Mənim üçün Budapeştdə keçirilən Avropa çempionatı da ömrüm boyu xatırlanan bir hadisə olacaq. Çünki bu çempionatda qızıl medal qazanaraq üçqat Avropa çempionu oldum. Çoxdan bəri arzusunda olduğum bir zirvəni fəth etdim. Bu çempionat yaddaşımda həmişə qürur duyulası xatirə kimi qalacaq.

**- Avropa çempionu adını qazananda hansı hissləri keçirdiniz?**

- Rəqibimi üstələyib qızıl medal qazanan anlarda xoş hisslər keçirdim. Qələbəmi




Azərbaycan idmanının qələbəsi sandım. Xalqımıza bu sevinci bəxş etdiyimə görə çox xoşbəxtəm. Həmin anlarda sevinc və üçqat Avropa çempionu adını qazanmağın qürurunu, həyatımın ən xoş anlarını yaşadım.

**- Macarıstandan qayıtdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çempionatda fərqlənən, medallar qazanan idmançılarla görüşdü. Həmin görüşdə siz də iştirak edirdiniz. Bu görüş barədə fikirlərinizi bilmək istərdik.**

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin idmançılarla görüşdə səmimi söhbət etməsi ölkəmizdə idmana və idmançıya göstərilən diqqət və qayğının göstəricisidir. Möhtərəm Prezidentimiz idmançıların hamısını demək olar ki, yaxından tanıyır. Bu tarixi görüşümüz maraqlı və yaddaqalan oldu. Hər addımda dövlət başçısının diqqət və qayğısını hiss edirik. Düşünürəm ki, növbəti yarışlarda qələbələrimiz daha möhtəşəm olacaq. Prezidentimiz İlham Əliyevlə ilk görüşümüz deyildi. 2015-ci ildə komanda halında dünya kubokunu qazananda da bizlərlə görüşmüş, uğurlarımızı qiymətləndirmiş, ünvanımıza xoş sözlər demişdi.

**- Bu günlərdə müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev də sizinlə görüşdü. Macarıstanda keçirilən güləş üzrə çempionatda qızıl medal qazandığınıza görə sizi təbrik etdi, qarşıdakı yarışlarda uğurlar arzuladı. Qazandığınız uğurlara görə müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə sizə vaxtından əvvəl növbəti "kapitan" rütbəsini təqdim etdi. Yəqin ki, sizə göstərilən bu diqqət və qayğı yeni qələbələr qazanmağınıza təkan verəcək.**

- Bu görüş yaddaqalan oldu. İdmançılara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, müdafiə naziri general-polkovnik Zakir Həsənova, Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevə öz minnətdarlığımı bildirirəm. Təbiidir ki, bütün bunlar biz idmançıları yeni-yeni qələbələrə ruhlandırır.

**- Bu gün yenə də məşq edir, növbəti yarışlara hazırlaşırsınız. Yəqin ki, xalqımızı yeni-yeni qələbələrinizlə sevindirəcəksiniz.**

- İdmançı döyüşçü kimidir. O, daim döyüşə, mübarizəyə hazır olmalıdır. Uğurlara, zəfərlərə gedən yol gərgin təlim-məşq toplantılarından keçir. Bu ilin iyununda dünya reytinq turniri keçiriləcək. Avqustda isə İslam Həmrəylik Oyunlarında iştirak edəcəyik. Sentyabrda isə dünya çempionatının keçirilməsi gözlənilir. İdmançılarımız üçün ən önəmlisi dünya kuboku yarışlarıdır. Bu yarışlar ölkəmizdə keçiriləcək. Dünya kubokunda yarışların komanda şəklində keçirilməsi hər bir idmançının məsuliyyətini daha da artırır. Bir idmançı olaraq daim məşq edir, fiziki hazırlığımı artırıram. Çalışıram ki, Azərbaycan idmanını beynəlxalq yarışlarda layiqincə təmsil edim, xalqımızı yeni uğurlarımla sevindirim. Şuşada, Kəlbəcərdə, Laçında, bütöv Qarabağda yüksələn bayrağımızı idman arenalarında ən yüksək pilləyə qaldırım.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Birinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsi anılıb



Vətənimizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan soydaşlarımızın xatirəsinə ehtiram məqsədilə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində anım mərasimi keçirildi. Şəhidlərimiz Musayev Emin Həsən oğlu, Əliyev Adil İsrafil oğlu və Həsənov Əli İbrahim oğlunun xatirəsinə həsr olunan mərasimdə Müdafiə Nazirliyinin əməkdaşları, şəhidlərin ailə üzvləri, dostları və döyüş yoldaşları iştirak etdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Mərasim iştirakçılarına şəhidlərin ömür və döyüş yolu haqqında məlumat verilib.

Çıxış edənlər xalqımızın cəsur övladlarının Birinci Qarabağ müharibəsində göstərdikləri şücaətdən, böyük zəfərlə bitən Vətən müharibəsindən, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun yazdığı qələbə tarixindən danışdılar. Qeyd olundu ki, Vətənimizin müstəqilliyi uğrunda döyüşən hər qəhrəmanımız əbədidir, onların xatirəsini yad etmək borcumuzdur.



Şəhidlərin ailə üzvləri və yaxınları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər.

Mərasimin sonunda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən vətənpərvərliyi tərənnüm edən musiqilər səsləndirildi.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# Şəhadətin şərəfimiz, şərəfimiz Vətəndir

Şanlı Azərbaycan Ordusu Vətən müharibəsində dünya hərb tarixinə nümunə olacaq şərəfli bir zəfər gətirdi. Belə ki, Azərbaycanın qorxmaz, cəsur övladları 30 il düşmən tapdağında olan Qarabağı 44 günə azad edərək, böyük tarixi keçmişə malik bir xalqın həsrətinə son qoydu. 17 noyabr 1990-cı ildə Lənkəran rayonunun Nüvədi kəndində dünyaya gələn Vüsal Kamran oğlu Kazımov da bu haqq savaşımızda xüsusi hünər göstərdi və canını Vətəninə fəda etməklə tarix yazdı. Bu gün Vüsal cismən aramızda olmasa da, adı Lənkəran camaatının dilində əsl övlad məhəbbəti ilə çəkilir, ürəklərdə yaşayır.

Ömrünün 30-cu ilində Vətən müharibəsinin mərdlik, qəhrəmanlıq simvoluna çevrilən Vüsal Kazımovun hər iki valideyni gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olur. Atası Kamran müəllim Lənkəran Dövlət Universitetinin dosentidir. Vüsalın anası Gülər xanım isə Lənkəran rayonunun, Yuxarı Nüvədi kənd məktəbində sinif müəllimidir. Ziyalı ailədə böyüyən, onlardan tərbiyə alan Vüsal yaşa dolduqca bütün varlığı ilə Vətəninə, xalqına bağlanır. Dəyərli və mənalı ömür yaşamaqdan ötrü 2011-ci ildə ordu sıralarına yola düşür. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində “Ehtiyat zabit hazırlığı kursu”nu keçir. Kursu müvəffəqiyyətlə bitirdikdən sonra ön xətdə yerləşən "N" hərbi hissəsində taqım komandiri kimi Vətənin keşiyində durur. Vətənpərvərliyi, əxlaqi keyfiyyətləri, Vətənə əsl oğul məhəbbəti, millətinə bağlılığı xidmət etdiyi hərbi hissədə onun nüfuzunu artırır. Həmişə mənfur düşmən tapdağında olan Qarabağı düşünən Vüsal deyərdi: "Müqəddəs Vətən torpaqları uğrunda döyüşüb, onu işğalçılardan azad etmək bi-



zim birinci borcumuzdur".

Qəlbi Qarabağı azad görmək eşqi ilə döyünən Vətən sevdalısı xidmət müddəti başa çatdıqdan sonra üzüağ doğma Lənkərana elinə qayıdır. Xidmətdən sonra yaşayıb-yaratmaq həvəsi ilə çalışan Vüsal işləməklə bərabər, həm də Lənkəran Dövlət Universitetinin qiyabi şöbəsində İqtisadiyyat və idarəetmə fakültəsinin "Mühasibat uçotu və audit" ixtisası üzrə təhsil alır. İşgüzarlığını, insanlara münasibətini nəzərə alıb, onu Lənkəran şəhər Uşaq Gənclər və İdman məktəbinin direktoru vəzifəsinə təyin edirlər. Vüsal burada gənclərin sağlam, vətənpərvər ruhda böyüməsi üçün böyük səy göstərir. Həmişə xəyalı Qarabağ torpaqlarında dolaşır, Birinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsinə idman yarışları keçirməklə uşaqlara qəhrəmanlıq hissləri aşılayır.

El-obada xeyirxah əməlləri ilə tanınan, Qarabağın yağı tapdağından qurtulması üçün mübarizəyə hazır olan Vüsal Vətən müharibəsi başlanan gündən Qarabağı azad etmək arzusunda olan qəhrəmanların cərgəsinə qoşulur. Baş leytenant Vüsal Kazımov Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində döyüşür. Azad olunan torpaqları gördükcə qələbəyə böyük inamla addımlayır. Şuşada müharibə meydanında şəhadətə ucalır. Vətən sevgisi Vüsala zəfər salnaməsində əbədi yaşamaq xoşbəxtliyini bəxş edir...

Vüsalın ailəsində ondan yadigar Nuray, Aynur adında iki qız uşağı böyüyür. Onlar atalarını görməsələr də, adı çəkiləndə həmişə fəxr edəcəklər. Atalarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlar ilə layiq görüldüyü "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medallarına baxanda şəhadətin şərəfimiz, şərəfimiz Vətəndir, - deyəcəklər...

**Zəfər ORUCOĞLU**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# “Aprel döyüşləri - Qələbəmizin əsas müjdəçisi” adlı tədbir keçirilib



Xəzər rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin kollektivinin təşkilatçılığı ilə Aprel döyüşlərinin altıncı ildönümünə həsr olunmuş "Aprel döyüşləri - Qələbəmizin əsas müjdəçisi" adlı tədbir keçirilib. Tədbirdə hərbçilər, şəhid ailələri, qazilər, Xəzər rayon Gənclər və İdman İdarəsinin əməkdaşları və başqa qonaqlar iştirak ediblər.

"Aprel döyüşləri - Qələbəmizin əsas müjdəçisi" adlı tədbir xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Xəzər rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Əliyev çıxış edərək bildirib ki, belə tədbirlərin davamlı olaraq məktəblərdə, kitabxanalarda keçirilməsi çox vacibdir. "Çünki belə tədbirlər gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük rol oynayır. Gəncləriniz Vətən, torpaq uğrunda canından keçən qəhrəmanlarımızı tanıyır, onların keçdiyi şərəfli döyüş yolları ilə tanış olurlar. Qeyd etməliyəm ki, dövlətimizin gənclər siyasətində gənc nəslin vətənpərvər ruhda tərbiyə olunması və bu istiqamətdə aparılan böyük işlər daim diqqət mərkəzində saxlanılır. Azərbaycan gəncləri hər zaman vətənpərvər ruhda tərbiyə alıb. İstər Aprel döyüşlərində, istərsə də 44 günlük Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda canından, qanından keçən gənclərimiz bunu bir daha sübut etdilər. O gənclər ki, xalqımızın 30 ilə yaxın torpaq həsrətinə son qoydular. O gənclər ki, düşmənin ordusunu darmadağın edib tarixi torpaqlarımızı azad etdilər. Onlar üçrəngli bayrağımızı işğaldan azad edilmiş torpaqlarımıza sancdılar. Qələbə sevincini bizə yaşatdılar. Allah bütün şəhidlərimizə rəhmət eləsin!"

Daha sonra tədbir Xəzər rayon 326 nömrəli tam orta məktəbin hərbi hazırlıq müəllimi, Vətən müharibəsi iştirakçısı Şahin Hüseynovun və həmin məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Leyla Zeynallının "Qarabağ müharibəsi və tarixi" mövzusundakı



çıxışları ilə davam edib.

Çıxış edən şəhid ailələri tədbirin təşkilatçılarına dərin minnətdarlıqlarını bildirərək, onlara göstərilən dövlət qayğısından danışıblar. Bildirilib ki, dövlət başçımızın diqqət və qayğısı sayəsində şəhid ailələrinin sosial şəraitinin yaxşılaşdırılması və onların problemlərinin həlli istiqamətində ardıcıl addımlar atılmaqdadır.

Vətən müharibəsi qazisi Fərahim Əmirli rəşadətli Azərbaycan Ordusunun genişmiqyaslı əks-hücum əməliyyatında əsgər və zabitlərin qəhrəmanlıqlarından, döyüşlərlə bağlı yaddaqalan xatirələrindən, keçdiyi döyüş yolundan danışıb.

Tədbir iştirakçıları pedaqoq, bədii qiraətçi və şəhid bacısı Müşfiqə Balaəddinqızının səsləndirdiyi "Salam Vətən" şeirini böyük maraqla dinləyiblər.

Tədbirdə Aprel şəhidləri Mahir Mirzəyev, Fəxrəddin Qurbanlı, Əbu-Bəkir İsmayılov və Rasim Məmmədovun əziz xatirəsi yad edilib, keçdikləri şərəfli döyüş yollarından söhbət açılıb.

Sonda Vətən müharibəsi şəhidi Ramil Yusifzadənin anası Reyhan Yusifzadə şəhidlərimizin adının daim əziz tutulmasına görə dövlət rəhbərliyinə minnətdarlığını ifadə edib, oğlu ilə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşüb.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** 1918-1920-ci illərdə Azərbaycanda baş verən ictimai-siyasi hadisələr. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti və süqutu.

**Suallar:**

**1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət.**

**2. Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu.**

**3. Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəbləri.**

### Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Bəşəriyyət tarixinin ən dəhşətli və ən qanlı hərbi-feodal müstəmləkə rejimi olan çar Rusiyası da Azərbaycan xalqının dövlətçilik ənənələrini məhv edə bilmədi. Əsarət altına salınmış türk-müsəlman xalqlarının milli mənlik şüurunu və qədim dövlətçilik ənənələrini məhv etmək siyasəti yeridən Rusiya imperiyası Cənubi Qafqazı bu siyasətin ən dəhşətli qanlı qırğın meydanına çevirmişdi. Bu qəddar siyasətin son məqsədi Cənubi Qafqazı Azərbaycanın türk-müsəlman əhalisindən "təmizləmək", bundan sonra İran və Türkiyəni aradan qaldırıb rahatca isti dənizlərə çıxmaq, bununla da Rusiyanın tarixi arzusuna Hindistana yetişmək niyyətinə nail olmaq idi.

Birinci Dünya müharibəsinin gedişində "xalqlar həbsxanası" olan Rusiya imperiyasının dağılması üçün real tarixi şərait yaranarkən Azərbaycan xalqı həm qədim dövlətçilik ənənələrinə, həm də ən mütərəqqi idarəçilik mədəniyyətinə yiyələndiyi üçün müstəqil dövlət halında yaşamağa hazır idi. 1917-ci ilin fevralında Rusiyada Romanovlar mütləqiyyəti (mütləq monarxiya) devrildi. Monarxiya rejimi aradan qaldırıldıqdan sonra hakimiyyətə gələn Müvəqqəti hökumət Cənubi Qafqazın idarəçiliyi üzrə Xüsusi Komitə yaratdı. Fevral inqilabının siyasi həyata gətirdiyi canlanma nəticəsində Azərbaycanın müxtəlif sahələrində müsəlman milli şuraları yaradıldı. Onların arasında ən güclüsü və nüfuzlusu Bakı Müsəlman İctimai Təşkilatları Şurası idi. Özünün ümummilli xətti ilə kütləviliyini artıran və Bakıda siyasi üstünlüyə malik olan bu şura tərkibinə milli-azadlıq hərəkatının liderləri olan M.Rəsulzadə, F.Xoyski, Ə.Topçubaşov kimi ziyalılar daxil idilər.

Rusiyada müvəqqəti hökumət uzun müddət hakimiyyətdə qala bilmədi. 1917-ci ilin oktyabrındakı hakimiyyət çevrilişi nəticəsində Cənubi Qafqazdan Rusiyanın Müəssislər Məclisinə seçilən deputatlar Petroqrada və Moskvaya gedə bilmədilər. Onlar 1918-ci il fevralın 14-də Tiflisdə Zaqafqaziyanın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini yaratdılar. Zaqafqaziya Seymində Müsəlman Fraksiyasını Müəssislər Məclisinə seçilər zamanı Azərbaycanın, habelə bütün Cənubi Qafqazın bir milyondan çox türk-müsəlman seçicisinin səsini qazanmış 44 deputat təmsil edirdi. Dövlət dumalarında olduğu kimi, Zaqafqaziya Seyminin də ən aparıcı üzvləri Azərbaycan nümayəndələri idilər. Məhz onların tələbi ilə 1918-ci il aprelin 9-da Zaqafqaziya Seymi Zaqafqaziyanın müstəqilliyini elan etdi və Birləşmiş Zaqafqaziya Cümhuriyyəti yaradıldı. Lakin istər daxili, istərsə də xarici siyasət sahəsində kəskin milli mənafe ziddiyyətlərinin olması Zaqafqaziya Seymi və Birləşmiş Zaqafqaziya Cümhuriyyəti hökumətinin konkret addımlar atmasına imkan vermədi. Nəticədə 1918-ci il mayın 25-də gürcü nümayəndələr Seymdən çıxdılar və ertəsi gün - mayın 26-da Gürcüstanın müstəqilliyini elan etdilər.

### Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə dövlət quruculuğu

Mayın 27-də Seymin Müsəlman Fraksiyasının üzvləri ayrıca iclaslarını keçirdilər və Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Bu məqsədlə Zaqafqaziya Müsəlman Şurası özünü Azərbaycan Milli Şurası, daha doğrusu, Azərbaycan Parlamenti elan etdi. 1918-ci il mayın 27-də keçirilən həmin iclasda Azərbaycan Milli Şurasının Rəyasət Heyəti və sədri seçildi. M.Ə.Rəsulzadə Milli Şuranın sədri oldu. Mayın 28-də Tiflisdə canişin sarayında keçmiş seymin Azərbaycan fraksiyasının 44 nümayəndəsindən 26 nəfərinin iştirak etdiyi Milli Şuranın birinci iclasında Azərbaycanın müstəqil dövlət elan olunması haqqında qərar qəbul olundu və "İstiqlal bəyannaməsi"nin mətni təsdiqləndi. Cənubi Qafqaz respublikaları ilə sərhəd məsələləri qismən nizama salındıqdan sonra Azərbaycan Xalq Cümhuriyyəti Cənubi Qafqazdakı tarixi Azərbaycan torpaqlarının 113.9 kv. km-ni əhatə etmiş, əhalisi isə 2.8 milyondan çox olmuşdur.

Gənc Azərbaycan dövləti son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitdə doğulmuşdu. Bakıda hakimiyyəti S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik qrupu ələ keçirmiş və Azərbaycanın türk-müsəlman əhalisinə qarşı dəhşətli soyqırımına başlamışdı. Çar generalları tərəfindən silahlandırılmış erməni quldur dəstələri Şərqi Anadolunun və Qərbi Azərbaycanın türk-müsəlman əhalisinə qarşı qanlı qırğını - soyqırımını davam etdirirdilər. Azərbaycan xalqının cəlladları olan Şaumyan və Andranik əlbir fəaliyyət göstərirdilər. Azərbaycan xalqı fiziki cəhətdən məhv edilmək təhlükəsi qarşısında idi. Neft Bakısını ələ keçirməyə çalışan xarici qüvvələr arasındakı rəqabət sona çatmaqda və bütün Cənubi Qafqaz üçün yeni təhlükə - bolşevik Rusiyasının təcavüzü təhlükəsi yaxınlaşmaqda idi. Azərbaycan xalqı öz tarixinin ağır yolayrıcında qalmışdı: ya Milli qurtuluş, ya da ki, məhv edilərək Cənubi Qafqazın etnik - siyasi xəritəsindən tamamilə silinib götürülmək. Azərbaycanı müstəqil dövlət elan etmiş cümhuriyyət xadimləri məhz belə bir tarixi şəraitdə çaşqın vəziyyətə düşmüş və çıxış yolu tapa bilməyən xalqın önünə keçdi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin ilk Parlamenti Azərbaycan Milli Şurası özünün ilk addımlarını atmağa başladı. Azərbaycan Milli Şurasının 1918-ci il mayın 27-dən iyunun 17-dək davam edən və 20 gün sürən ilk fəaliyyəti dövründə cəmi 7 iclası keçirildi və bu iclaslarda başlıca olaraq iki mühüm qərar qəbul edildi: birincisi - Azərbaycanın istiqlalı elan olundu və "İstiqlal bəyannaməsi" qəbul edildi; ikincisi - Gəncədə Fətəli xan Xoyski başda olmaqla, ilk Azərbaycan hökumətini formalaşdırdı və 1813-cü ildən sonra ilk dəfə olaraq Azərbaycanın müstəqil idarə olunmasına başlandı. Azərbaycanın bir hissəsində - Şimali Azərbaycanda respublika quruluşu yaradıldı.

İyulun 15-də Fövqəladə Təhqiqat Komissiyası yaratmaq barədə qərar qəbul olundu. Hökumətin başlıca vəzifəsi ölkənin bütün ərazisində AXC-nin hakimiyyətini bərqərar etmək, Bakını və onun ətraflarını Azərbaycan xalqının düşmənlərindən təmizləmək idi. İyunun 19-da Fətəli xan Xoyski dost Türkiyənin dəstəyinin əhəmiyyəti barədə Azərbaycan əhalisinə çağırış etdi və Azərbaycan ərazisində həmin gündən hərbi vəziyyət elan etdi. Batum müqaviləsinə əsasən, AXC-yə kömək üçün Türkiyə Ordusunun ümumi sayı 15000 nəfərdən ibarət iki diviziyası göndərildi. İyunun 24-də qırmızı parça üzərində ağ aypara və ağ səkkizguşəli ulduz təsvir olunan bayraq azad Azərbaycanın dövlət rəmzlərindən biri kimi qəbul olundu. İyunun 26-da Müsəlman hərbi korpusu ayrıca Azərbaycan Korpusuna çevrildi və bu da faktiki olaraq Azərbaycan Silahlı Qüvvələrinin yaradılması demək idi. Milli orduya səfərbərlik keçirildi. 1920-ci ilin yanvarında artıq 30 min nəfər piyada və 10 min nəfər süvaridən ibarət ordu yaradılmışdı.

1918-ci il iyunun 27-də Azərbaycan-türk dili dövlət dili elan olundu və həmin gün Qafqaz İslam Ordusu Göyçay yaxınlığında Bakı Soveti qoşunları üzərində qələbə qazandı. Yelizavetpol və Qaryagi-nin tarixi adları bərpa olunaraq yenidən Gəncə və Cəbrayıl adlandırıldı. 1918-ci il sentyabrın 15-də ağır döyüşlərdən sonra Qafqaz İslam Ordusu Azərbaycan xalq könüllü dəstələrinin köməyi ilə Bakını işğaldan azad etdi. Sentyabrın 17-də hökumət Bakıya köçdü. Bakı paytaxt elan olundu. Noyabrın 9-da AXC-nin dövlət bayrağı üzərində aypara və səkkizguşəli ulduz təsviri olan üçrəngli bayraqla əvəz olundu.

Lakin Azərbaycanda siyasi hadisələrin inkişafı daxili proseslərdən daha çox Birinci Dünya müharibəsinin gedişindən və nəticələrindən asılı idi. Azərbaycan öz mənafeyi naminə Osmanlı qüvvələrinin qalib gəlməsini arzulayırdı. Lakin Osmanlı ilə Antanta dövlətləri (Fransa, İngiltərə və ABŞ) arasında 1918-ci ilin 30 oktyabr Mudros müqaviləsinə görə məğlub sayılan Türkiyə qoşunlarını Azərbaycandan çıxarmalı, Antanta qüvvələrinin Bakıya girməsinə mane olmamalı, Zaqafqaziya dəmir yolu üzərindəki nəzarət hüququnu Antantaya güzəştə getməli idi. Noyabrın 17-də ingilis qoşunları Bakıya daxil oldular. İngilis qoşunlarının komandanı general Tomson Azərbaycanın müstəqilliyini tanımaq haqqında bəyanat verməkdən imtina etsə də, Azərbaycanın Paris Sülh Konfransında iştirak edəcəyi, Bakıya erməni hissələrinin daxil olmayacağı barədə öz üzərinə öhdəliklər götürdü. 1919-cu ilin aprelində Bakıda ingilis general-qubernatorluğu ləğv edildi, ingilislər Paris Sülh Konfransının şərtlərinə uyğun olaraq Qafqazı tərk etməyə başladılar. 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransının istiqlaliyyətinin tanınması haqqında yekdilliklə qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyəti qısa bir müddətdə normal fəaliyyət göstərən dövlət aparatı yaratmağa, 20-dən çox dövlətlə diplomatik əlaqələr qurmağa nail oldu. Yeni yaranmış dövlət fəaliyyəti dövründə "Türkləşmək, İslamlaşmaq və müasirlik" ideyası uğrunda mübarizə aparırdı.

### Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəbləri

Azərbaycan beynəlxalq aləmdə tanınmasına baxmayaraq, ölkənin şimal sərhədlərindəki vəziyyət gərgin olaraq qalırdı. Rusiyanın Cənubunda Denikinin qoşunlarına qalib gələn bolşeviklər Bakı neftinə sahib olmaq üçün öz qüvvələrini Azərbaycan sərhədinə cəmləşdirərək işğala hazırlaşırdılar. 1920-ci ilin fevralında A.Mikoyanın rəhbərliyi ilə yaranmış Azərbaycan kommunist (bolşevik) partiyasının əsas məqsədi ölkədaxili vəziyyəti gərginləşdirmək, təxribat yolu ilə bolşeviklərin hakimiyyətə gəlməsinə şərait yaratmaq idi.

Sovet Rusiyası Ermənistanın Azərbaycana qarşı düşmənçiliyindən məharətlə istifadə edirdi. 1920-ci ilin əvvəllərində erməni nümayəndələri Moskvada ərazi güzəştləri müqabilində Azərbaycanın hökumətini devirmək üçün Qarabağ və Gəncəbasarda məskunlaşan erməni əhalisinin qiyamını təşkil etmək təklifini verdilər. 1920-ci ilin martında Qarabağda kütləvi erməni hücumlarının başlanması ilə əlaqədar Azərbaycan Ordusunun əsas qüvvələri bu bölgədə yerləşdirilmişdi. Şimal sərhədlərini qoruyan qüvvələrin böyük bir hissəsi də Qarabağa göndərilmişdi. Erməni silahlı birləşmələri ilə döyüşlərdə Azərbaycan Ordusunun hissələri canlı qüvvə, silah-sursat və əmlak itkilərinə məruz qalmışdılar. Aprelin 27-də parlamentin iclasında hərbi nazir Səməd bəy Mehmandarov ölkəni müdafiə barədə sorğuya cavab olaraq bildirdi ki, Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə müqavimət göstərməyə qadir olsa da, bolşeviklərin hücumunun qarşısını almaq üçün kifayət qədər qüvvəyə malik deyildir.

1920-ci ilin aprelində Denikinin qoşunlarını məğlub edən XI qırmızı ordu Azərbaycanın sərhədlərinə yaxınlaşdı. Həmin günlərdə A.Mikoyan başda olmaqla Bakı bolşevikləri Azərbaycan xalqı adından XI rus ordusunu Azərbaycana dəvət etdilər. Aprelin 26-dan 27-nə keçən gecə XI qırmızı ordunun hissələri Azərbaycan ərazisinə daxil olub Bakıya doğru irəliləməyə başladılar və Azərbaycan parlamentinə hakimiyyəti təhvil vermək haqqında ultimatum verildi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyətdən sonra süqut etdi. Aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası elan olundu. Aprel işğalı nəticəsində Azərbaycanda bolşevik rejiminin ömrü 70 il çəkdi. Lakin bu illərdə xalq özünün istiqlal arzularını unutmadı, nəsildən-nəslə ötürdü.

1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktında Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna belə qiymət verildi: "1920-ci il aprelin 27-28-də RSFSR-in XI ordusunun Azərbaycana təcavüzü, respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Xalq Cümhuriyyətini devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğal etməsi hesab edilsin".

Müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının dövlət quruculuğunda Azərbaycan Xalq Cümhuriyyətinin təcrübəsindən istifadə xətti götürüldü. Həmin dövrün dövlət rəmzləri yenidən qəbul edildi. Lakin Azərbaycan Respublikasının yarandığı ilk günlərdən Ermənistan tərəfinin ərazi iddiaları, hakimiyyət uğrunda ölkədaxili çəkişmələr dövlət quruculuğunu ləngidir, müstəqilliyimizə təhlükə yaradırdı. 1991-1993-cü illərdə Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyətin dövlətçiliyimizi təhlükə altına qoyduğunu dərk edən hakimiyyət xalqın təkidi ilə görkəmli dövlət xadimi, böyük dövləti idarəetmə təcrübəsinə malik olan ulu öndər Heydər Əliyevi ölkə rəhbərliyinə dəvət etdi. Məhz ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra apardığı müdrik və uzaqgörən daxili və xarici siyasət nəticəsində Azərbaycan Respublikasının dövlət quruculuğunda və bu quruculuğun vacib sahələrindən biri olan ordu quruculuğunda əsaslı dönüş yarandı. Bu gün Azərbaycan nəinki öz müstəqilliyini qoruyub saxlaya bilmiş, hətta dünya dövlətləri arasında böyük nüfuza malik olan bir dövlət kimi öz layiqli yerini tutmuşdur.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətini xüsusi vurğulayaraq demişdir: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaradılması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsini yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# “Ən yaxşı radiasiya, kimyəvi və bioloji mühafizə heyəti” adı uğrunda yarış keçirilir





Müharibə nədir? Bu sualın bir neçə cavabı vardır. Ancaq tarixə nəzər salsaq görərik ki, müharibə bir tərəfin digər tərəfə öz mövqeyini zorla qəbul etdirmək, ərazisini zəbt və təbii sərvətlərini talan etmək istəyidir. İllər ötdükcə ölkələr hərbi potensialını gücləndirmək məqsədilə ordularında islahatlar aparır, ən yeni silah, texnika və kütləvi qırğın silahları ilə təchiz edirlər. Buna görə gündən-günə insan üçün böyük təhlükə törədən kütləvi qırğın silahlarından qorunma ilə bağlı məsələlərin aktuallığı daha da artır.

Quru qoşunlarının 2022-ci tədris ilinə hazırlıq planına əsasən şəxsi heyətin taktiki-xüsusi, xüsusi hazırlıq və kütləvi qırğın silahlarından qorunma, kimya təminatı tapşırıqlarının yerinə yetirilməsi zamanı cihazlardan, fərdi qorunma vasitələrindən istifadə etmə bacarığını, fiziki möhkəmliyini və dözümlülüyünü, sıra fənlərini yerinə yetirmə bacarığını yoxlamaq məqsədilə "Ən yaxşı radiasiya, kimyəvi və bioloji mühafizə heyəti" adı uğrunda yarış keçirilir. 4 mərhələdən ibarət yarışda hər birlikdən bir heyət iştirak edir.

Yarışın birinci mərhələsində kütləvi qırğın silahlarından mühafizə üzrə təlim qutularına baxış keçirilir, hərbi qulluqçuların fərdi hazırlığı və manqaların sıra uzlaşması üzrə qiymətləndirmələr aparılır. İkinci mərhələdə iştirakçılar əleyhqazın, yaxud respiratorun geyinilməsi, yüngül qoruyucu kostyumun və əleyhqazın geyinilməsi, həmçinin nüvə partlayışı zamanı hərəkətlər üzrə normativlər icra edilir. Üçüncü mərhələdə təyin olunmuş vəziyyətə görə kimya qoşunları və qorunma vasitələri haqqında bilikləri yoxlanılır. Şəxsi heyətin hər birinə suallar verilir və aidiyyəti üzrə normativlər yerinə yetirilir. Bu zaman radiasiya, kimyəvi, qeyri-spesifik bakterioloji kəşfiyyat və dozimetrik nəzarət cihazlarının işə hazırlanması və onlarla işləmə qabiliyyəti yoxlanılır. Sonuncu mərhələdə yarışın iştirakçıları kimyəvi müşahidə postunun açılması tapşırığını icra edəcəklər.

Yarış zamanı təhlükəsizlik və hərbi intizam qaydalarına ciddi riayət olunur.

"Ən yaxşı radiasiya, kimyəvi və bioloji mühafizə heyəti" adı uğrunda keçirilən yarışın komissiyasının sədri polkovnik-leytenant Nicat Zeynalovla həmsöhbət oluruq. Zabit bildirir ki, qoşunların döyüş təminatının bir növü də kütləvi qırğın silahlarından qorunmaqdır. "Dünyada gedən proseslər görstərir ki, kimyəvi silahlardan hər an istifadə oluna bilər. Tarixdə bir çox ölkələr də müharibə zamanı bu cür silahlardan istifadə edib. Ordumuzda döyüş hazırlığı planına əsasən, kütləvi qırğın silahlarından qorunmaq prioritet məsələlərdəndir.



Döyüşlərdə şəxsi heyətin operativliyini və çevikliyini daha da artırmaq məqsədilə mütəmadi olaraq məşğələlər, təlimlər və yarışlar keçirilir. Bu gün keçirilən yarışın əsas əhəmiyyəti şəxsi heyətə radiasiya, kimyəvi və bioloji şəraitdə fərdi mühafizə vasitələrinin geyinilməsi, həmçinin kəşfiyyatın aparılması və xüsusi təmizləmənin təşkili üçün hazırlığın aparılmasıdır. Ordu sıralarında xidmət edən hər kəs ölkəmizin istehsalı olan əleyhqaz və yüngül mühafizə kostyumları ilə təmin olunub. Bu mühafizə kostyumları şəxsi heyətin zəhərli kimyəvi sahələrdə mühafizəsini və oranı zərərsiz tərk etməsi üçün vacib vasitədir".

Döyüş meydanında məğlub olmamaq üçün düşmən bütün vasitələrdən istifadə edir. İnsan orqanizminə daxil olan kimi tez həll olunan kimyəvi silahların tərkibindəki zəhərli maddələr mədə-bağırsaq sisteminin fəaliyyətini dərhal sıradan çıxarır, ürək sisteminin fəaliyyətinə güclü təsir edir və insanda halsızlıq, təngnəfəslik yaradır. Həmçinin fosfor tipli mərmilərin qəlpələri insanların bədənində dəhşətli yanıqlar əmələ gətirir. Mərminin qəlpələri hətta suda belə sönmür. Belə mərmilərin partlayışı nəticəsində insan bədəninin dərisi öz-özünə soyulur, yaraları müalicə etmək isə çətin olur.

Vətən müharibəsindən danışan zabit dedi ki, döyüşlər zamanı Ermənistan silahlı qüvvələrinin fosfor tərkibli zəhərli maddələrdən istifadə etdiyinin şahidi olduq. "Ancaq ordumuzun radiasiya, kimyəvi və bioloji silahlardan qorunması üçün bütün lazımi tədbirlər görülmüşdü. Döyüşlərdə keçidlərin açılması zamanı şəxsi heyət aerozol maskalanmadan istifadə edib. Bölmələrimizin təhlükəsizliyini təmin etmək üçün işğaldan azad edilən ərazilərimizdə radiasiya kimyəvi kəşfiyyat aparılıb. Ərazilərin kimyəvi zəhərli maddələrlə çirklənib-çirklənməməsi haqqında yuxarı komandanlığa məlumatlar verilib".

Öyrənirik ki, polkovnik-leytenant Nicat Zeynalov İkinci Qarabağ müharibəsinin iştirakçısıdır. O, Qubadlı rayonu istiqamətində gedən döyüşlər zamanı yaralanıb. Düşmənin artilleriya zərbələri nəticəsində sağ ayağından qəlpə yarası alan zabit hospitala təxliyə edilir. Döyüşlərdən sonra Ali Baş Komandanın müvafiq sərəncamlarına əsasən torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında nümayiş etdirdiyi igidlik və şücaətə görə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

Komissiyanın sədri ilə söhbətimizi yekunlaşdıraraq, yarışda iştirak edən heyətlərdən birinə yaxınlaşırıq. Heyətin rəhbəri mayor Ülfət Orucov yarışa hazırlıq prosesi haqqında danışaraq bildirdi ki, iştirakçıların hazırlığı yüksək səviyyədədir. "Komandamızın hər üzvü bütün mərhələlərdə göstərdiyi nəticə ilə yarışın qalibi olmaq istəyir. Bunun üçün bütün qüvvəmizi səfərbər edərək, əlimizdən gələni əsirgəməyəcəyik. Yarışa hazırlıq zamanı aşkar olunan iradları və çatışmazlıqları daima komanda şəklində aradan qaldırmaq üçün birgə çalışdıq. İnanıram ki, gərgin mübarizə getsə də, qalib biz olacağıq. Buna görə hər mərhələdə digər iştirakçılardan cəld və diqqətli olmalıyıq".

Keçirilən bu cür yarışların böyük əhəmiyyət kəsb etdiyini deyən zabit İkinci Qarabağ müharibəsində Murovdağ istiqamətində gedən döyüşlərin iştirakçısıdır. O, Ali Baş Komandanın müvafiq sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilib.

"Ən yaxşı radiasiya, kimyəvi və bioloji mühafizə heyəti" adı uğrunda keçirilən yarışda iştirak edən hər heyət 3 nəfərdən ibarətdir. Onlardan biri manqa komandiri, ikisi isə kimyaçı kəşfiyyatçıdır. Yarış iştirakçılarının təəssüratlarını öyrənmək üçün müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Sahib İsgəndərov, əsgərlər Bəhrəm Abbaslı və Zeyqəm Əlizadə ilə söhbətləşdik. "Yarışa hazırlaşdığımız müddət ərzində sadəcə qələbəyə motivasiya olmuşuq. İştirakçılar arasında gərgin mübarizə gedir. Hər komanda xidmət etdiyi birliyə qələbə ilə qayıtmaq istəyir. Ancaq hər yarışda olduğu kimi hazırlığımız yüksək səviyyədədir və əlimizdən gələni əsirgəmədən qalib olacaq, komandirlərimizin etimadını doğruldacağıq".

Ordumuzun gücü onun sıralarında xidmət edən savadlı və vətənpərvər oğullarındadır. Yarışda iştirak edən hər kəs bilik və bacarığını səfərbər edərək qalib olmaq istəyir. Bu istək sadəcə kiçik qələbə deyil. Bu istək Azərbaycan əsgərinin Vətənini, xalqını qorumaq istəyidir. Necə ki, Vətən müharibəsində Vətənimizin ərazi bütövlüyü, torpaqlarımızın azadlığı istəyi bizi qələbəyə apardı.

**Kapitan**
**Ruslan HƏSƏNZADƏ**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin Hərbi Dəniz Qüvvələri Komandanlığının “Mavi Vətən-2022” təlimləri başlayıb



Türkiyənin Hərbi Dəniz Qüvvələri Komandanlığı "Mavi Vətən-2022" təlimlərinə başlayıb. "Mavi Vətən-2022" Komandanlığın ən böyük təlimlərindən sayılır.

Bununla bağlı ölkənin Kocaeli vilayətinin Gölcük bölgəsində Dəniz Qüvvələrinin Dəniz Döyüş Mərkəzi Komandanlığında mətbuat konfransı keçirilib.

Aprelin 21-dək Qara dəniz, Egey dənizi və Şərqi Aralıq dənizində keçiriləcək "Mavi Vətən-2022" təlimində Türkiyənin Hərbi Dəniz Qüvvələrinə aid 122 gəmi, 41 təyyarə və 12 min nəfər iştirak edəcək.

Konfransda çıxış edən təlimin rəhbəri, kontr-admiral Yusuf Akyüz təlimin əsas məqsədinin bölmələrin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması və hərbi qulluqçuların praktiki vərdişlərinin təkmilləşdirilməsi olduğunu bildirib.

## Serbiya Türkiyədən “Bayraktar” pilotsuz uçuş aparatı alacaq



Serbiya yaxın vaxtlarda Türkiyədən "Bayraktar" pilotsuz uçuş aparatı alacaq.

Bu barədə Serbiya Prezidenti Aleksandr Vuçiç deyib.

A.Vuçiç "Bayraktar" pilotsuz uçuş aparatı ilə bağlı tələbi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana bildirdiyini qeyd edib.

"Serbiya tədarükdə prioritet olmaqla "Bayraktar" əldə etmək imkanı qazanacaq. Biz bu silahları Serbiya ordusunun inventarına daxil edəcəyik", - deyə o bildirib.

## Pakistanda “Şahin-3” ballistik raketi uğurla sınaqdan çıxarılıb



Pakistanda "yer-yer" sinfinə daxil olan "Şahin-3" uzaq mənzilli ballistik raketi uğurla sınaqdan çıxarılıb.

Nüvə başlığı daşımağa qadir olan yeni ballistik raket 2750 kilometr məsafədəki hədəfə zərbə vura bilir.

Bu sinifdən olan ilk raketin sınağı 2015-ci ildə baş tutmuşdu.

Bundan əvvəl Pakistanda "Babur" (uçuş məsafəsi 490 kilometr), "Şahin-1" (650 km), Ghauri (1300 km), və "Şahin-2" (1500 km) raketləri də uğurla sınaqdan çıxarılıb.

## Qara dənizdə “Moskva” raket daşıyan gəmisi batıb



Rusiya Hərbi Dəniz Donanmasına məxsus "Moskva" raket daşıyan gəmisi batıb.

Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat verib.

Bildirilib ki, gəmi qasırğa nəticəsində batıb. Aprelin 13-də göyərtəsində olan hərbi sursatın partlaması nəticəsində "Moskva" gəmisində yanğın baş verib. Bundan sonra gəmi yedəyə alınaraq təmir üçün limana daşınıb. Kreyserin heyəti Qara Dəniz Donanmasının digər gəmiləri tərəfindən təxliyə edilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Ordusunda hərbiləşdirilmiş kros birinciliyi keçirildi



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2022-ci il üçün təsdiq etdiyi döyüş hazırlığı plana uyğun olaraq hərbi qulluqçular arasında hərbiləşdirilmiş kros birinciliyi keçirildi.*

Yarışlarda müxtəlif qoşun növlərində və birləşmələrdə xidmət edən komandalar birincilik uğrunda mübarizə apardılar. Onlar atış, qumbaraatma və 3 kilometr məsafəyə kros qaçışı üzrə yarışlarda güclərini sınadılar. Komanda hesabında 1-ci yerə "Quru Qoşunları" komandası, 2-ci yerə "Hərbi polis" komandası, 3-cü yerə isə "Təlim və Tədris Mərkəzi" komandası layiq görüldü. Fərdi hesabda 1-ci yerdə gizir Tural Məmmədov, 2-ci yerdə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Emil Mürşüdov, 3-cü yerdə isə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Rasif Məhərrəmov qərarlaşdılar.

Gizir Tural Məmmədov bildirdi ki, bu cür rəqabətli yarışda qalib olmaq qürurvericidir. "İştirak edən hər kəs bütün gücünü səfərbər edirdi. İştirakçılar arasında qalib olma istəyi, rəqabət güclü idi. Nəticədə qalibləri saniyələr ayırdı. Sonunda hərbiləşdirilmiş krosa ən yaxşı hazırlaşanlar da layiq olduqları yerləri tutdular.



Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində keçirilən bağlanış mərasimində əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi, kubok, fəxri fərman və diplomlar təqdim edildi. Mərasimdə çıxış edənlər belə yarışların böyük əhəmiyyət daşıdığını, hərbiləşdirilmiş krosun və buna bənzər digər yarışların da hərbi qulluqçular üçün çox önəmli olduğunu vurğuladılar.



Sonda qaliblərə diplom, kubok və medallar təqdim olundu.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**



# "Peşəkarlığımızı daha da artırırıq"

*Azərbaycan Ordusunda zabit və əsgərlərin döyüş hazırlığının təkmilləşdirilməsi və artırılması məqsədilə müntəzəm olaraq təlim və məşqlər həyata keçirilir. "Ən yaxşı snayper" adı uğrunda keçirilən yarış da belə tədbirlərdəndir. Hərbi hissə və birləşmələrin hərbi qulluqçularının iştirakı ilə təlim mərkəzində yarışa start verildi. Beş gün davam edən müsabiqədə hərbi qulluqçular güc və bacarıqlarını nümayiş etdirdilər.*

İştirakçılar birinciliyə qələbə ovqatı ilə başladılar. Yarışların keçirilməsi ilə bağlı ətraflı məlumat almaq üçün polkovnik-leytenant Aqil Məmmədovla söhbət etdik. Zabit dedi ki, şəxsi heyətin döyüş hazırlığının səviyyəsinin yoxlanılması və artırılması məqsədilə müntəzəm olaraq belə tədbirlər keçirilir. Bir qayda olaraq hərbi qulluqçularımız yarışda fəal iştirak etdilər. Onların fəallığı yarışın gedişinə olan marağı daha da artırdı. Təsdiq olunmuş plana əsasən, snayperlərin yarışı altı mərhələdə keçirildi. Birinci mərhələdə snayperlər məqbul atışı tapşırığını yerinə yetirdilər. Sonrakı mərhələlərdə isə onlar daha vacib tapşırıqları icra etdilər. Hərbi qulluqçularımız "snayper müdafiədə", "snayper hücumda" və digər mövzular üzrə atəş çalışmalarında öz bacarıqlarını nümayiş etdirdilər. Belə yarışların keçirilməsində əsas məqsəd snayperlərin hazırlıq səviyyəsinin yoxlanılması və Azərbaycan Ordusunda ən yaxşı snayperin müəyyən olunmasıdır. İndiyə qədər hərbi hissə və birləşmələrdə keçirilən təlimlərdə qazanılan təcrübə və səriştə yarışda sınağa çəkildi. Kim güclü və hazırlıqlıdırsa, o da qalib gələcək.

Hərbi qulluqçuların yarışdakı fəaliyyətlərini, bacarığını izləmək üçün atış sektorlarına getdik. Hərbi hissə və birləşmələrdən yarışa qatılmış zabitlər, əsgərlər növbə ilə irəli çıxaraq tapşırığı yerinə yetirərək, hədəfləri dəqiq vurmağa çalışırdılar. Onların hərəkətlərindən, silahla davranmalarından hiss olunurdu ki, təcrübəli və səriştəlidirlər.

Atış sektorunda tapşırığı yerinə yetirib geri dönən leytenant Elnur Mustafayevlə görüşüb söhbət etdim, yarış barədə təəssüratlarını öyrəndim. Gənc zabit dedi ki, snayperlərin yarışının keçirilməsi önəmlidir. Mən bu birincilikdə ikinci dəfədir ki, iştirak edirəm. Ötən il yarışda fəallıq göstərərək, layiqli yeri tutduq. İnanıram ki, bu il də yaxşı nəticələr göstərəcək, ürəkaçan uğurlar qazanacağıq. Yarışların keçirilməsi üçün təlim mərkəzində də əlverişli şərait yaradılıb. Bizlər bu şəraitdən səmərəli istifadə edərək qalib olmağa çalışırıq. Snayper birinciliklərinin keçirilməsinin biz hərbçilər üçün çox böyük əhəmiyyəti var. Biz ilboyu təlim-məşğələlər keçərək bilik və bacarıqlarımızı artırmışıq. İndi isə yarışların qalibi olmağa çalışırıq.



Yarış iştirakçısı olan əsgərlər Rəşad İsmayılov, Tural Həsənov, Elnur Süleymanov və başqaları ilə də görüşüb söhbət etdik. Onların yarış barədə fikirləri çox müsbət idi.

"Ən yaxşı snayper" yarışı aprelin 15-də başa çatıb.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Aprel döyüşləri şəhidlərinin xatirəsinə həsr olunmuş peşəkar boks gecəsi təşkil olunub



Bakıda Azərbaycan Peşəkar Boks Federasiyası Komissiyasının dəstəyi və "Karapapak Fight Club and Promotion"un təşkilatçılığı ilə Aprel döyüşləri şəhidlərinin xatirəsinə həsr olunmuş peşəkar boks gecəsi keçirilib.

Qonaqlar arasında Azərbaycanın Milli Qəhrəmanı, general-mayor Polad Həşimovun qardaşı, şəhid ailələrinin övladları və qazilərimiz yer alıblar.

Gecədə müxtəlif çəki dərəcələri üzrə 10 döyüş baş tutub. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Kənan Hüseynəliyev (53,5 kq), Rauf Ağayev, Nihat Abdullayev (hər ikisi 57 kq), Şamil Əsgərov (59 kq), Seymur İsayev (63,5 kq), İsmət Eynullayev (79,4 kq), Malik Məmmədzadə, Elnur Məmmədov, Taryel Cəfərov (hər üçü 91 kq) və Kazım Umudov (ağır çəki) qələbə qazanıblar.

## Vətən müharibəsi şəhidi Ömər Rəhimlinin xatirəsinə həsr olunmuş şahmat turnirinin qalibləri mükafatlandırılıb



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsində (BŞGİBİ) Vətən müharibəsi şəhidi Ömər Rəhimlinin xatirəsinə həsr olunan onlayn şahmat turnirinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə Ömər Rəhimlinin atası Rəşad Rəhimov, Baş İdarəsinin rəisi Raqif Abbasov, Nəsimi rayon Gənclər və İdman İdarəsinin rəisi Şahmar Tağıyev, sektor müdiri, paytaxtın şahmat idman növü üzrə koordinator-kuratoru Gündüz Vəliyev, şəhidin sərbəst güləş üzrə məşqçisi olmuş Cavidan İsmayılzadə, turnirin baş hakimi Fidan Talıbova iştirak ediblər.

Əvvəlcə Vətən müharibəsində həlak olan şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Şəhid Ömər Rəhimlinin atası R.Rəhimov idmançılara uğurlar arzulayıb, övladının xatirəsinin əziz tutulmasına görə minnətdarlığını bildirib.

Oğlanların yarışında Allahverdi Həmidov birinci olub. İsmayıl Süleymanlı yarışı ikinci, Məmməd Məmmədzadə isə üçüncü pillədə başa vurublar. Qızların mübarizəsində Aytac Məmmədova, Məryəm Ağaverdiyeva və Səlbinaz İsmayılova ilk üçlükdə yer alıblar.

Sonda qaliblər Baş İdarə tərəfindən medal və xatirə diplomları ilə mükafatlandırılıblar.

## Sərbəst və yunan-Roma güləşi üzrə U-17 Azərbaycan çempionatı keçiriləcək



Aprelin 19-dan 22-dək sərbəst və yunan-Roma güləşi üzrə U-17 Azərbaycan çempionatı keçiriləcək.

Yeniyetmələrin ölkə birinciliyi COVID-19 pandemiyası ilə əlaqədar üçillik fasilədən sonra baş tutacaq.

Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman-Sağlamlıq Mərkəzində təşkil olunacaq çempionatın keçirilməsində məqsəd güləşin təbliği, bu idman növündə kütləviliyə nail olmaq və qarşıdan gələn mühüm beynəlxalq yarışlar ərəfəsində müvafiq milli komandaların heyətinin yenidən formalaşdırılmasıdır. Beynəlxalq və milli dərəcəli hakimlərimizin idarə edəcəyi yarışın medalçıları U-17 yaş qrupu üzrə yığma komandaların heyətinə cəlb olunacaq.

Görüşlər hər gün saat 10:30-da başlayacaq. Medallar uğrunda qarşılaşmalar isə 16:30-da start götürəcək. Yarışın təntənəli açılış mərasimi aprelin 19-da saat 16:00-da başlayacaq.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini** kapitan Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Hüsniyyə İDRİSOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 491
Nüsxə 4673